BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Humanitar elmlər seriyası 2006

# TARİX

## MÜSTƏQİLLİK DÖVRÜNDƏ AQRAR İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ

**İ.X.ZEYNALOV*, X.A.İSLAMOVA****
****Bakı Dövlət Universiteti, ** Bakı ş., 199 saylı orta məktəb***

Keçmiş SSRİ dövründə mövcüd olan mərkəzi planlaşdırma sistemi, vahid dövlət mülkiyyətinin hökmranlığı, o zamankı müttəfiq respublikalararası iqtisadi-istehsal əlaqələrinin dağılması respublikamızın iqtisadiyyatına öz mənfi təsirini göstərmiş, xüsusilə də kənd təsərrüfatı məhsullarının həcmi 50%, ixrac potensialı isə 3 dəfə azalmışdır. Həmin dövrdə Azərbaycanda sənaye, kənd təsərrüfatı və digər istehsal sahələri mərkəzdən asılılıq prinsipləri əsasında qurulmuşdu. Məhz bu səbəbdən müstəqilliyini qazanan və digər respublikalarla olan iqtisadi-istehsal əlaqələrini itirən respublikamızda dövlət iqtisadiyyatının, xüsusilə aqrar sahənin inkişaf etdirilməsi üçün bir çox tədbirlər planı işlənib hazırlanmışdır.

1990-cı ildən başlayaraq ölkədə aqrar islahatların aparılması, sovxoz və kolxozların torpaq və əmlakının əhaliyə verilməsi istiqamətində bir çox təşəbbüslər göstərilmiş, fərman və qanunlar qəbul edilmişdir. Hətta sınaq məqsədi ilə Abşeron rayonunda bir neçə fermer təsərrüfatı yaradılmışdır. Lakin görülən tədbirlər pərakəndə şəkildə, səriştəsiz aparıldığından heç bir müsbət nəticə verməmişdir.

1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi ərazidə aqrar islahatların keçirilməsinə dair xüsusi qərar qəbul edir. Verilən qərara uyğun olaraq bir neçə dağ kəndində aqrar islahatlar həyata keçirilməyə başlanır. Azərbaycanda belə ilk kompleks tədbir Culfa rayonunun «Azərbaycan» sovxozunda həyata keçirilmişdir.

Kənd təsərrüfatı ölkə iqtisadiyyatının mühüm sahəsidir, ölkə əhalisinin təqribən yarısı kənd yerlərində yaşayır, ümumi daxili məhsulun 30%-i bu bölmənin payına düşür. Bu mühüm cəhəti qiymətləndirən respublika prezidenti Heydər Əliyev 1994-cü ilin sonunda keçirdiyi müşavirədə göstərir ki, aqrar islahatların keçirilməsi tarixi bir prosesdir. Bu prosesdə təsərrüfatçılıq mexanizmi yenisi ilə əvəz olunmalı, kənd təsərrüfatının inkişafı sərbəst bazar iqtisadiyyatı sisteminə keçməli və torpaq islahatının yeni mexanizmi yaradılmalıdır.

Ölkə iqtisadiyyatını bazar münasibətləri əsasında qurmaq,

cəmiyyətin demokratik əsaslarla inkişafını təmin etmək məqsədi ilə dövlətin qanunverici orqanı olan Milli Məclisdə bir çox qanun və qərarlar qəbul edilmişdir. Ümumilikdə, 1991-2004-cü illər ərzində Milli Məclisdə qəbul edilən aqrar islahatlara aid qanunlar sırasına «Aqrar islahatların əsasları» haqqında, «Kolxoz və sovxozların islahatları» haqqında, «Torpaq islahatları» haqqında, «Baytarlıq tələbatı» haqqında, «Müəssisələr» haqqında, «Meliorasiya və irriqasiya» haqqında, «Torpaq vergisi» haqqında, «Torpaq icarəsi» haqqında, «Torpaq bazarı» haqqında, «Kredit ittifaqları» haqqında, «Dövlət Torpaq kadastrı, torpaqların monitorinqi və yer quruluşu» haqqında, «Torpaq Məcəlləsi» haqqında, «Bitki mühafizəsi» haqqında, «Damazlıq işi» haqqında, «Bitki karantini» haqqında, «Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı» haqqında və s. qanunları aid etmək olar.

Habelə aqrar islahatlar və onun həyata keçirilməsi ilə bağlı Respublika Nazirlər Kabinetində 22-dən çox, Dövlət Aqrar İslahat Komissiyasında isə 100-dən artıq normativ akt və qərar qəbul olunmuşdur.

Ölkədə aqrar islahatların aparılmasında dünya təcrübəsinə əsaslanmaq məqsədi ilə 1994-cü ildə İsrail, Almaniya, Rusiya, Qazaxıstan, Çin və s. dövlətlərin aqrar sahə üzrə iqtisadçı alimlərinin, mütəxəssislərinin iştirakı ilə Milli Məclisdə «Aqrar islahatların aparılması təcrübəsi»nə dair Beynəlxalq Konfrans keçirilmişdir. 1994-cü il 23 dekabr tarixində isə parlamentdə «Aqrar islahatların gedişi», «Respublikada kənd təsərrüfatı islahatlarının gedişi və islahatların aparılması vəziyyəti» və «Torpaq islahatı haqqında» qanunların layihələri müzakirə olunmuşdur. Daha sonra Milli Məclisdə 1994-cü il 25 dekabr tarixində aqrar islahat layihələrini hazırlamaq üçün xüsusi komissiya yaradılır. Komissiyanın gördüyü tədbirlər nəticəsində parlamentdə 1995-ci ilin fevral ayında iki mühüm qanun qəbul edilir: 1) 4 fəsil və 17 maddədən ibarət olan «Aqrar islahatların əsasları» haqqında qanun. Bu qanun Azərbaycan Respublikasının aqrar sənaye kompleksinin (aqrar bölmənin) islahatının əsas istiqamətini və onların hüquqi təminatını müəyyən edir. 2) 3 fəsil və 25 maddədən ibarət olan «Sovxoz və kolxozların islahatları» haqqında qanun. Bu qanun sofxoz və kolxozların təsərrüfatlararası və digər kənd təsərrüfatı istehsalı müəssisələrinin (bundan sonra sofxoz və kolxozların) istiqamətindəki (balansındakı) torpaq və əmlakdan pay almaq hüququ olan şəxslər tərəfindən təsərrüfatın (müəssisənin) hər hansı təşkilati-hüquqi formasının könüllü seçilməsinə və yaradılmasına təminat verir.

Qəbul olunmuş qanunların həyata keçirilməsi üçün Respublika Prezidentinin 2 mart 1995-ci il tarixli fərmanı ilə Dövlət Aqrar İslahat Komissiyası (DAİK) yaradılır. Bu komissiyanın təşkili islahatların aparılmasını daha da reallaşdırmış, aqrar islahatların istiqamətlərini, forma və mərhələlərini düzgün müəyyənləşdirməyə

imkan vermişdir. DAİK islahatların həyata keçirilməsində qarşıya çıxacaq ilk problemləri aradan qaldırmaq və bu prosesi düzgün istiqamətləndirmək məqsədi ilə Zaqatala və Xızı rayonlarında sınaq tədbirləri keçirmişdir.

1996-cı il 2 aprel tarixində prezident yanında «Aqrar bölmədə islahatlar strateji yolumuzdur» adlı müşavirə keçirilmiş və burada baxmayaraq ki, parlamentdə qəbul edilən qanunlar aqrar islahatların keçirilməsi üçün əsasdır, lakin mərkəzi və yerli orqanların bu məsələyə ciddi yanaşmaması, eləcə də torpaqların bölüşdürülməsi haqqında qanunun olmaması islahatların gedişini ləngidilməsi qeyd edilmişdir. Və bu səbəbdən torpaq haqqında qanunun qəbul edilməsi əsas şərtdir. Nəticədə Milli Məclisin 16 iyun 1996-cı il tarixli iclasında «Torpaq islahatı» haqqında qanun müzakirə olunur və qəbul edilir. Bu qanunla Respublikanın torpaq fondu: dövlət, bələdiyyə və xüsusi mülkiyyətə verilən torpaq sahələrinə bölünür. Eləcə də sovxoz və kolxozların əmlaklarının özəlləşdirilməsi, fiziki şəxslərin (ailələrin) qanuni istifadəsindəki torpaqların özəlləşdirilməsi və onların hüquqi tənzimləyici prinsipləri «Torpaq islahatı haqqında» qanunda öz əksini tapmışdır. Müstəqil Dövlətlər Birliyi ölkələri içərisində ilk dəfə Azərbaycanda qəbul edilən bu qanun xarici ölkə nümayəndələri tərəfindən çox bəyənilmiş və yüksək qiymətləndirilmişdir.

Aqrar islahatları sürətləndirmək, bu sahədə ən mühüm tədbirlərdən olan ictimai əmlakın və torpağın bölgüsündə ədalət prinsipini qorumaq məqsədi ilə 1997-ci il 10 yanvar tarixində «Aqrar islahatların həyata keçirilməsini təmin edən bəzi normativ-hüquqi aktların təsdiq edilməsi barədə» Respublika Prezidentinin fərmanı ilə DAİK-nın hazırladığı 8 normativ-hüquqi akt parlamentdə təsdiq olunmuşdur.

1996-cı il 25 dekabr tarixində Milli Məclisdə «Torpaq vergisi haqqında» qanun layihəsi müzakirə edilir. Müzakirədə torpaq vergisindən toplanan vəsaitin büdcəyə daxil edilməsi, aqrar sahəyə kömək məqsədi ilə vergi dərəcələrinin optimal həddədək azaldılması və s. məsələlərə toxunulmuşdur. Verilən qanun nəticəsində 2005-ci ilin məlumatına görə mənfəət vergisinin dərəcəsi 25%-dən 24%-ə enmişdir. Bunun davamı olaraq Milli Məclisdə aqrar islahatların gedişini sürətləndirmək məqsədi ilə «Kənd təsərrüfatı məhsulları istehsalına müddətli kreditlərin uzadılması haqqında» qanunun qüvvədə olma müddətinin uzadılması haqqında yeni qanun qəbul edilir. Bu qanunla hüquqi şəxslər mənfəət, əmlak vergisindən, fiziki şəxslər isə əmlak vergisindən azad edilir.

Ümumilikdə, parlamentin fəaliyyəti nəticəsində 1998-ci ildən dövlətin torpaq sahibliyinə inhisarçılığı ləğv olunmuş, 2016 kolxoz və sovxoz, təsərrüfatlararası müəssisələrin torpaq payı və əmlakı özəlləşdirilmişdir. 1.695.123 ha (19,6%) özəlləşdirilməsi nəzərdə tutulan kənd təsərrüfatı torpaqlarından 1391374 ha yararlı torpaqlar xüsusi mülkiyyətə verilib (99,7%) (2003-cü il). Nəticədə xüsusi mülkiyyətə torpaq payı almış əhalinin sayı 3408410 nəfər, ailələrin

sayı isə 866.698 olmuşdur. Respublikanın ümumi ərazisindən yerli bələdiyyə orqanlarına 2.032.244 ha (23,5%) torpaq verilib, 4.913.639 ha (56,9%) isə dövlət mülkiyyətində saxlanılıb.

Parlamentin 1999-cu il mart-noyabr aylarında qəbul etdiyi «Torpağın münbitliyi haqqında», «Torpaq Məcəlləsi haqqında» və «Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yer quruluşu haqqında» qanunlar aqrar islahatların ikinci mərhələsinin inkişafına təkan vermiş oldu.

Respublika Prezidenti H.Əliyevin 1999-cu il 22 mart tarixində «Aqrar sahədə islahatların sürətlənməsinə dair bəzi tədbirlər haqqında» imzaladığı fərmanda islahatların gedişi tənqid olunmuşdur. Verilən fərman kənd təsərrüfatı məhsulları istehsalının müasir tələblərə cavab verməsinə və aqrar islahatların ikinci mərhələsinin sürətləndirilməsinə hüquqi əsas vermiş oldu. Bunun davamı olaraq «1999-2000-ci illərdə sahibkarlığın inkişafına köməklik göstərilməsinə dair Dövlət Proqramı haqqında» yeni fərman imzalanır.

Azərbaycan Respublikası iqtisadi-coğrafi, təbii sərvət və ehtiyatları, əhalinin məskunlaşma səviyyəsi, reqionların sahə və ərazi quruluşu, tarixi inkişaf xüsusiyyətlərinə görə müxtəlifdir, xüsusilə kənd təsərrüfatında zonalar üzrə, təsərrüfat üzrə ixtisaslaşma formaları bir-birindən fərqlənir. Bu fərqliliklə bağlı Milli Məclisin qəbul etdiyi qanun və qərarlar aqrar islahatlar gedişində respublikanın iqtisadi rayonlarında müxtəlif cür özünü büruzə vermiş və yeni təsərrüfatçılıq növlərinin meydana gəlməsinə səbəb olmuşdur.

1990-cı illərə qədər respublikada istehsal olunan çay, üzüm və subtropik meyvələrin 90 faizini verən cənub iqtisadi rayonu – Lənkəran-Astara iqtisadi rayonu aqrar islahatların gedişi prosesində öz ixtisaslaşma növlərini dəyişmişdir. İqtisadi rayona daxil olan Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı və Lənkəran inzibati rayonlarında müxtəlif təsərrüfatçılıq növlərinin inkişaf etdirilməsi üçün 1996-cı ildə Beynəlxalq İnkişaf Assosiasiyası və Beynəlxalq Kənd Təsərrüfatı İnkişaf Fondu (İFAT) ilə aparılan danışıqlar nəticəsində özəl kənd təsərrüfatı müəsissələrinin yaradılması üçün ayrılan 28 mln. ABŞ dolları həcmində kreditin bir hissəsi bu regiona verilmişdir. Bundan əlavə Avropa Birliyinin TASİS proqramına uyğun ölkədə taxılçılıqla məşğul olan özəl sahəyə riski olmayan kreditlərin verilməsi (28,82 mln dollar) bu regionda fermer təsərrüfatlarının özəlləşdirilməsinə və drenaj işlərinin aparılmasına kömək etmişdir. Lakin qeyd edilməlidir ki, digər iqtisadi rayonlara nisbətən bu ərazidə dövlət aktlarının təsərrüfatlara verilməsinin yubadılması aqrar islahatların gedişinə öz mənfi təsirini göstərmişdir.

İslahatların həyata keçirilməsi prosesi sürətləndikcə ölkədə çoxnövlü təsərrüfatçılığın yaradılması və inkişafı üçün əlverişli şərait yaranmış, həmçinin aqrar sənaye kompleksində bazar münasibətləri meydana gəlmişdir. Ölkədə yeni təsərrüfatçılıq növlərinin yaradılması qanunların tələblərinə uyğun tam könüllülük prinsipi əsasında həyata keçirilmişdir. Belə ki, torpaqdan pay alan vətən-

daşlar – Azərbaycan kəndlisi hansı təsərrüfatçılıq növünün yaradılmasını özləri müəyyənləşdirmişdir.

Milli Məclisin «Torpaq islahatı» haqqında qanunu qəbul etməsindən sonra Lənkəran-Astara iqtisidai rayonunda yaranan fermer təsərrüfatlarında kartof əkinlərinə marağın artması, üzüm, taxıl, çay bitkilərinə nisbətən, bu bitkinin satışından daha çox gəlir əldə edilməsi ilə izah oluna bilər. Digər tərəfdən islahatlara düzgün olmayan münasibətlər, maddi-texniki təchizatın zəifliyi, fermerlərə verilən kreditlərin yubadılması və az olması çay, üzüm və taxıl əkin sahələrinin azalmasına gətirib çıxarmışdır. Hətta 1999-cu ildə Respublika Kənd Təsərrüfatı Nazirliyi taxılçılığa olan marağı artırmaq üçün taxılın dövlət qiymətini satışdan əvvəl elan etmişdir.

Araşdırmalar göstərir ki, islahatlar başlananda əhalinin mühüm ərzaq məhsullarına olan tələbatı daxili istehsal hesabına taxıl üzrə cəmi 5%, kartof üzrə 33%, tərəvəz üzrə 62% ödənilirdi. İslahat başlanarkən qarşıya belə bir vəzifə qoyulmuşdur ki, kənd təsərrüfatı məhsullarının istehsalında üstünlük əhalinin əsas növ ərzaq məhsullarına olan tələbatının ödənilməsinə yönəldilməlidir.

Lənkəran-Astara iqtisadi rayonu içərisində təsərrüfat xarakterini tamamilə dəyişmiş Cəlilabad rayonu xüsusilə diqqəti cəlb edir. 1990-cı ildə Cəlilabad rayonuun ərazisinin 11.450 ha-nı üzüm sahələri əhatə etmişdirsə, 2000-ci ildə 42.537 ha əraziyə taxıl səpilmiş, 2.305 ha əraziyə isə kartof əkilmişdir. Nəticədə Azərbaycan tarixində Azərbaycan kəndisi görünməmiş məhsul yığımı ilə rastlaşmışdır: taxıl 102.000 t, kartof 80.000 t. Torpağın hər hektarı 22.200.000 manata qədər gəlir vermişdir. Bunun nəticəsidir ki, artıq bir neçə ildir ki, Cəlilabad ərazisində fermerlərin böyük əksəriyyəti ildə iki dəfə kartof əkini ilə məşğul olurlar.

Ümumilikdə, çoxnövlü təsərrüfatçılıq sahələrini əhatə edən Lənkəran-Astara iqtisadi rayonunda buğda, kartof, çay və üzümlüklərin əkin sahələrinin 1996-2001-ci illərdə artıb-azalma göstəriciləri aşağıdakı cədvəldə verilmişdir:

**Buğdanın əkin sahəsi (ha-la)**

| Rayonlar | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 |
|---|---|---|---|---|---|---|
| Astara | 2723 | 3450 | 3514 | 2207 | 2230 | 2247 |
| Cəlilabad | 28768 | 32378 | 35481 | 38183 | 38966 | 40046 |
| Lerik | 4454 | 8082 | 8763 | 9858 | 10689 | 9258 |
| Lənkəran | 3330 | 4542 | 3689 | 1995 | 2064 | 2099 |
| Masallı | 9159 | 13126 | 13147 | 12244 | 12039 | 1223 |

**Kartofun əkin sahəsi (ha-la)**

| Rayonlar | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 |
|---|---|---|---|---|---|---|
| Astara | 234 | 213 | 556 | 811 | 857 | 806 |
| Cəlilabad | 680 | 836 | 2243 | 2163 | 2305 | 2408 |
| Lerik | 783 | 1002 | 1136 | 1059 | 1017 | 1196 |
| Lənkəran | 261 | 186 | 208 | 267 | 583 | 746 |
| Masallı | 473 | 488 | 436 | 610 | 751 | 556 |

**Üzüm bağlarının əкin sahəsi (ha-la)**

| Rayonlar | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 |
|---|---|---|---|---|---|---|
| Astara | 2 | 2 | 2 | | 2 | 2 |
| Cəlilabad | 3601 | 3804 | 399 | | | |
| Leriк | 606 | 619 | | | | |
| Lənкəran | 385 | 366 | 364 | | 364 | 35 |
| Masallı | 613 | 117 | 21 | 20 | 21 | 21 |

**Çayın əкin sahəsi(ha-la)**

| Rayonlar | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 |
|---|---|---|---|---|---|---|
| Astara | 1505 | 1481 | 1481 | 1440 | 1440 | 1354 |
| Leriк | 124 | 124 | 124 | 124 | 124 | 124 |
| Lənкəran | 4563 | 4395 | 4081 | 3620 | 3345 | 1904 |
| Masallı | 2112 | 1155 | 789 | 189 | 400 | 400 |

Göründüyü кimi, respubliкada aqrar islahatların кeçirilməsi regionda iqtisadi xaraкteri dəyişmiş, fermer təsərrüfat sisteminin müxtəlif təsərrüfatçılıq sahələrində ixtisaslaşmasına gətirib çıxarmış, bu isə bazar iqtisadiyyatı şəraitində rəqabət mühitini formalaşdırmış və ölкə iqtisadiyyatında rəngarəngliyin meydana gəlməsinə təкan vermişdir. Əкin struкturunda baş verən dəyişiкliкlər həm кəmiyyət, həm də кeyfiyyətcə müsbət dəyişiкliкlərə gətirib çıxarmışdır.

**Mənbələr**


1. «Azərbaycan» qəzeti. Baкı, 1995-2000-ci illər.
2. «Xalq qəzeti». Baкı, 1996-2005-ci illər.


**ƏDƏBİYYAT**


1. Azərbaycanın кənd təsərrüfatı. Statistiк məcmuə. Azərbaycan Respubliкası Dövlət Statistiкa Komitəsi. Baкı, 2001. 293 s.
2. Azərbaycan Respubliкasının Əməк Məcəlləsi Qanun, V, 2001. 176 s.
3. Abbasov A.B. Sahibкarlıq fəaliyyəti: növləri, təşəккülü və inкişaf problemləri. Baкı, 1998. 147 s.
4. Babayev T.Q. Aqrar sahədə özəl qurumların təşкili və iqtisadi əsası. Baкı, 1998. 154 s.
5. İbrahimov İ.H. Aqrar iqtisadiyyatın aкtual problemləri. Baкı, 2002. 220 s.
6. İbrahimov İ.H. Aqrar islahatın təşкilatı-iqtisadi mexanizmi. Baкı, 1998. 168 s.
7. Verdiyev Ə.İ. Azərbaycanda кəndli-fermer təsərrüfatının yaranmasının təşкili. Baкı, 1996. 87 s.
8. Verdiyev Ə.Ç., Qarayev İ.Ş. Aqrar bazarın formalaşmasıının iqtisadi problemləri. Baкı, 2000. 256 s.
9. Алиев И. Исторческие этапы сельского хозяйства Азербайджана и перспективы его развития. Баку, 2004. 377 с.
10. Məmmədov C. Aqrar bölmədə maddi-texniкi təminat və xidmət işinin təşкili (dərs vəsaiti). Baкı, 2004. 577 s.

## ПРОВЕДЕНИЕ АГРАРНЫХ РЕФОРМ В ПЕРИОД НЕЗАВИСИМОСТИ

**И.Х.ЗЕЙНАЛОВ, Х.А.ИСЛАМОВА**

### РЕЗЮМЕ

Представленная статья посвящена роли принимаемых законов и постановлений в осуществлении аграрной реформы. Законы, принимаемые в Милли Меджлисе, способствовали усилению интереса сельскому хозяйству и появлению на территории нашей республики многосторонних хозяйственных отношений. Проведение в республике аграрных реформ изменил характер экономики, помог специализации фермерской хозяйственной системы и формированию рыночных отношений.

## CARRYING OUT THE AGRARIAN REFORMS IN THE TIME OF INDEPENDENCE

**I.Kh.ZEYNALOV, Kh.A.ISLAMOVA**

### SUMMARY

The Applied article is about the role of the laus and deasions of the aqrarian reforms. And this article is used for making these refrms true, a great deal of laus and deasions, Which were given by Milli Meclis made a great enterest to the agricultural field, and created the varios, sides of productings in our republic.